*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 mart 2018-ci il № 20 (2236) Qiyməti 25 qəpik


# Təlimlər ordunun hərbi qüdrətini nümayiş etdirir

## Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri başlayıb



*Məşhur hərb xadimləri, görkəmli sərkərdələr daim təlimlərin rolunu yüksək dəyərləndirərək qeyd ediblər ki, belə tədbirlər ordunun hərbi qüdrətinin artırılmasına hesablanır. Zabit, yaxud əsgər təlim meydanında hərbi biliyini sınaqdan keçirir, hansı səviyyədə döyüş hazırlığına malik olduğunu nümayiş etdirir.*

Yaxın tariximizdə baş verən Qarabağ savaşında müvəqqəti məğlubiyyətimiz də təlim görməyən bir ordunun müharibədə uğursuzluğa düçar olduğunu isbat etdi. Yəni, təlimlərdə hazırlığını artırmayan ordu heç bir zaman qələbə qazana bilməz. Amma dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycanın ordu quruculuğunda da əsaslı dönüş baş verdi. Vahid komandanlıq və nizam-intizam bərpa edildikdən sonra ordunun şəxsi heyəti təlimlərə cəlb edildi. Həmin dövrün şahidi olan hərbçilər qeyd edirlər ki, genişmiqyaslı təlimlərə bəzən Ulu Öndər şəxsən nəzarət edir, hərbi qulluqçuları Vətəni düşməndən qorumaq üçün müsəlləh döyüşçü olmağa ruhlandırırdı. Məhz belə tədbirlərdən sonra Azərbaycan Ordusu cəbhə xəttində düşmənə güclü müqavimət göstərdi və indiki Horadiz şəhəri də daxil olmaqla 22 yaşayış məntəqəsi işğaldan azad edildi. Dahi rəhbər ordunun rəhbər heyəti ilə görüşlərində daim təlimin rolunu yüksək qiymətləndirər, belə vacib tədbirin şəxsi heyətdə qələbəyə inam hissinin formalaşmasına möhkəm zəmin yaratdığını tövsiyə edərdi. Şübhə yoxdur ki, döyüş şəraitində keçən təlim komandir-əsgər münasibətlərinin formalaşmasına, hərbi kollektivdə özünəinam hissinin güclənməsinə təkan verir.

**(Ardı 2-ci səhifədə)**

# Təlimlər ordunun hərbi qüdrətini nümayiş etdirir





(Əvvəli 1-ci səhifədə)

Müasir dövrdə də müdrik rəhbərin ordu quruculuğu strategiyası ölkəmizdə uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuzun hərbi qüdrəti durmadan artır. Siyasi hakimiyyətə gəldiyi ilk günlərdən ordu quruculuğunu dövlətin əsas prioriteti hesab edən Ali Baş Komandanımız Azərbaycan Ordusunun dünyanın qabaqcıl orduları səviyyəsinə yüksəldilməsi üçün mühüm tədbirlər həyata keçirib və bu siyasət son illər daha geniş vüsət alıb. Hərbi hissələrin maddi-texniki bazası gücləndirilib, hərbi qulluqçuların sosial şəraiti daha da yaxşılaşdırılıb. Sirr deyil ki, Azərbaycan Ordusunun arsenalına ən müasir silah-sursatlar daxildir.

Son illər ərzində ordunun genişmiqyaslı hərbi təlimlərə cəlb edilməsi artıq öz bəhrəsini verib. Məhz 2016-cı ilin aprel zəfəri belə tədbirlərin böyük əhəmiyyət kəsb etdiyini sübuta yetirdi. Aprel döyüşləri sübut etdi ki, təlimlər vasitəsilə döyüş qabiliyyətini artıran ordu məhz qələbə qazanmağa qadirdir.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti tərəfindən martın 12-də yayımlanan məlumatda qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, bu həftə müxtəlif qoşun növləri, qismləri, birlik və birləşmələrin iştirakı ilə genişmiqyaslı təlimlər başlayıb və martın 17-dək davam edəcək. Və son bir neçə təlimdə olduğu kimi, bu dəfə də böyük sayda şəxsi heyət - 25 min nəfərədək canlı qüvvə, həmçinin 250-dək tank və digər zirehli texnika, 1000-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 50-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası təlimə cəlb olunub.

Şübhəsiz, növbəti təlim də şəxsi heyətin döyüş vərdişlərinin daha da möhkəmləndirilməsinə töhfə olacaq.

**"Azərbaycan Ordusu"**

*Döyüş hazırlığı*

# Təlimdə uğur - döyüşdə zəfər

*Yüksəklikdə, düşmənlə təmas xəttində yerləşən artilleriya bölməsindəyik. Artilleriya bölmələrinin Azərbaycan Ordusunda özünəməxsus rolu vardır. Azərbaycanın hərb tarixində topçularımız hər zaman yüksək döyüş hazırlığı ilə fərqlənib. Məhz qədim ənənələrimizin davamı olaraq hazırda ordumuzda gənc artilleriyaçılar düşmənin cavabını layiqincə verməkdədir.*

İlk olaraq cavabdeh zabit Oktay Nəcəfov ilə tanış oluruq. O, söhbətində bildirir ki, ordumuza olan diqqət hər zaman şəxsi heyət tərəfindən hiss edilib. "Ali Baş Komandanımız çıxışlarında ordumuza olan diqqət və qayğısını hər zaman vurğulayır. Azərbaycan əsgərinin mənəvi-psixoloji vəziyyəti və döyüş hazırlığı yüksək səviyyədədir. Dövlətimiz humanizm dəyərlərinə əsas verdiyi üçün biz danışıqların nəticələrini gözləyirik. Danışıqlar bir nəticə verməyəcəyi təqdirdə ordumuz işğal altında olan torpaqlarımızı müharibə yolu ilə azad edəcək. Aprel döyüşlərində Azərbaycan Ordusu nəyə qadir olduğunu göstərməklə işğal altında olan ərazilərimizin bir hissəsini azad etdi. Bu döyüşlərdə artilleriya bölmələrimiz də fərqləndi. Düşmənimiz havadarlarına arxalana bilər, lakin bizim dövlətin arxalana biləcəyi güclü ordusu var. Müharibə hər an başlaya bilər. Bölməmizin zabitləri şəxsi heyətin yüksək bilik və bacarıqlara yiyələnməsi üçün çalışır. Müasir silahlarımız təlimlərdə ixtisaslaşmış hərbçilər tərəfindən mükəmməl mənimsənilərək, döyüşlərdə dəqiqliklə istifadə edilir".



Artilleriya bölməsinin şəxsi heyəti ilə tanış olanda daha bir təcrübəli zabiti - İlham Qəribovu tanıyıram. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini 2008-ci ildə fərqlənmə diplomuyla bitirən zabit bölmənin gündəlik fəaliyyəti haqqında bizi məlumatlandırır. "Təlimlərdə fəal iştirak edirik. Burada qazanılan uğur, döyüşdəki zəfərin sirridir. Dərslərimiz Müdafiə Nazirliyi tərəfindən təsdiq edilmiş döyüş hazırlığı planına əsasən təşkil edilir. İxtisas, döyüş və atəş hazırlığı dərsləri keçirilir. Topçu ixtisası haqqında anlayışı olan hər bir kəs yaxşı bilir ki, bu silah yüksək bilikdən əlavə möhkəm fiziki hazırlıq tələb edir. Ona görə də, şəxsi heyətin fiziki hazırlığının da yüksəldilməsinə diqqət yetirirk.

Döyüşçü, ona təhkim olunmuş silah və texnika haqqında məlumatlı olmağa borcludur. Hərbi əməliyyatda zəfər qazandıran amillərdən biri də döyüş ruhunun yüksək olmasıdır. Ali Baş Komandanımızın əmrini gözləyirik. Hər birimiz Qarabağımızı işğaldan azad etməyə hazırıq."

Sonra heyət nəfərləri ilə tanış oluruq. Hər bir heyətin yüksək hazırlıqlı hərbi qulluqçulardan təşkil olunduğu ilk baxışdan adamda xoş təəssürat oyadır. Komandirin tapşırıqlarına əsasən normativlər şəxsi heyət tərəfindən vaxtında və dəqiqliklə icra edilir. Topun "döyüş" və "səfər" vəziyyətinə gətirilməsi zamanı əsgərlər komandanı cəld, çevik və dəqiqliklə yerinə yetirirlər.

Növbəti həmsöhbətim çavuş Samir Kərimovdur. Kəlbəcər rayonundan olan bu gəncin dədə-baba ocağına sevgisi gözlərindən oxunur. "Kəlbəcər işğal olunanda kiçik yaşlarımda idim. O zaman çox şeyi dərindən dərk etməsəm də, ilə keçdikcə anladım ki, canımdan can qoparılıb. Hazırda güclü ordumuz var. Şəxsi heyətin təminatı, şəraiti günügündən yaxşılaşır. Yuxarı komandanlığın tez-tez təmas xəttində yerləşən bölmələri ziyarət etməsi, hər birimizdə ruh yüksəkliyi yaradır. Vətənimizə, xalqımıza sədaqətlə xidmət edirik. Vətən torpağını qorumaq kimi müqəddəs bir yolun yolçusu olaraq Azərbaycan Ordusunda xidmət etməkdən fəxr duyuram.

Söhbətimə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Sakit Fərmanovla davam edirəm. 1992-ci ildə Goranboy rayonunda anadan olub. Müsahibimin atası Qarabağ döyüşlərində iştirak edib. Ağdam, Füzuli istiqamətlərində gedən döyüşlərin birində yaralanaraq ehtiyata buraxılıb. Vətənpərvər atanın övladı olan əsgərin də düşmənə nifrətini sözlə ifadə etmək mümkünsüzdür. "Düşmənə gücümüzü döyüş meydanında göstərəcəyimiz günü səbirsizliklə gözləyirik. Atam mənə kiçik yaşlarımdan Vətəni sevməyin, onu qorumağın vacibliyini başa salıb. Həmişə mənə izah edib ki, hərbçilər ən şərəfli peşənin sahibləridir. Düşmənə cavab verməyə, hər hansı bir təxribatın qarşısını almağa, ən başlıcası, yağıları torpaqlarımızdan qovub çıxarmağa hazırıq. İnşallah, Azərbaycan bayrağı tezliklə bütün torpaqlarımızda dalğalanacaq".

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***13 mart 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 89 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağbulaq və Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Baş Qərvənd, Cəvahirli, Abdinli, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Gənc zabitlərimiz*

# “Zabit olmağı düşünəndə birinci sinifdə oxuyurdum”

*Qarşımda idmançı görkəmində bir zabit əyləşib. Onun haqqında qəzetimizə yazı hazırlamaq məqsədim təsadüfi olmadı. Tabeliyindəki şəxsi heyətlə söhbətlərimdən, bölmədə yaradılan şəraitlə tanışlıqdan qazandığım xoş təəssürat məni bu yazını hazırlamağa ruhlandırdı. Hansı əsgərdən soruşdumsa, komandirindən razılıq etdi və onun həyat yolunu özünə örnək bildiyini dedi.*



Yeniyetmə vaxtlarım idi, həyətyanı sahədə ağaclara qulluq edəndə torpağa bağlı qocaman əkinçinin sözlərini düşündüm. "Yer üzündə, canlı-cansız, nə varsa, hamısı qayğı, diqqət umur. Sən torpağa yaxşı qulluq etsən, çəkdiyin zəhmətin də bəhrəsini görəcəksən". Hərbi xidmətdə də belədir, komandirin təcrübəsi sayəsində peşəkar, vətənpərvər şəxsi heyət formalaşır. Müəllim yetirmələriylə fəxr etdiyi kimi komandir də bacarıqlı əsgərləri ilə öyünür. Bəs gənc zabit bütün bunlara necə nail olub?

Əvvəlcə onu tanıyaq. Baş leytenant Rəhimov Nüsrət Əli oğlu, 1 iyul 1991-ci ildə Ucar rayonunda anadan olub. Sadə bir ailədə tərbiyə alıb. 2005-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyə qəbul olunub, 2012-ci ildə isə ulu öndərimiz Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbini bitirib.

- Zabit olmağa nə vaxt qərar vermisən? - sualıma cavabı isə marağıma səbəb olur. Deyir ki, birinci sinifdə oxuyanda əfsanəvi general, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovu özünə örnək seçib.

- Elədir, Həzi Aslanovdan bəhs edən bədii filmə ilk dəfə baxanda birinci sinifə gedirdim, - onu hərbə bağlayan hisslərini bölüşür. - Bu film məni yaman təsirləndirdi, həmyerlimizin uzaq bir diyarda göstərdiyi qəhrəmanlıqdan qürur duydum. İnsafən, generalın obrazını canlandıran aktyor da bu rolu ustalıqla yaradıb. Elə həmin vaxtdan da zabit olmaq arzusu düşüncələrimə hakim kəsildi. Üçüncü sinifdə "Mən kim olmaq istərdim?" mövzusunda inşa yazanda da hərbçi olacağımı bildirdim.

Gənc zabit haqlıdır, heç kim hansısa peşəni təsadüfdən seçmir, qarşılaşdığı hadisələr, yaxud təmasda olduqları həyatını dəyişir, arzularına istiqamət verir. Məşhur bir yazıçı məhbəs həyatından əsər yaratmaq üçün özü də müxtəlif vasitələrə əl ataraq bir illik həbsxana həyatını seçir. Məhz həmin müddətdə gördükləri, şahidi olduğu hadisələr əsasında çox maraqlı bir əsər yazır. Məncə, hər sahədə belədir, seçdiyin peşədə uğur qazanmaq üçün ona qəlbən, ruhən bağlı olmalısan. Zabit olmaq şərəfli olduğu qədər də çətin, məsuliyyətli peşədir. Gör neçə sayda əsgərin taleyinə cavabdehlik daşıyırsan, o gəncləri bacarıqlı döyüşçü kimi hazırlamaq vəzifəsi sənin üzərinə düşür. Məhz buna görə də hər bir zabit komandir olmaq üçün bu peşənin incəliklərinə bələd olmalıdır..

Tələbə olmuşuq, təhsil aldığımız illərdə çox vərdişlər qazanmışıq, dəyərli müəllimlərimiz bizə elmin, həyatın sirlərini aşılayıb, onların tövsiyələrindən öyrənmişik. Kursant həyatı da belədir, çoxları lap yeniyetmə vaxtlarında bu yola düşür, əvvəlcə hərbi liseydə, sonra isə ali hərbi təhsil müəssisələrindən birində oxuyur. Əslində kursant həyatı tələbə ömründən bir qədər fərqlidir. Çünki bura qapalı bir sahədir, gecə-gündüz məktəblə bağlanırsan, məhz əsgəri xidmətdə olduğu kimi. Hərbin bütün sirlərinə alışmaq üçün burada istənilən şərait vardır.

- İlk dəfə hərbi formanı geyinəndə güzgü qarşısından çəkilmirdim, - baş leytenant deyir. - Fikirləşirdim ki, tezliklə çiynimdə zabit poqonu daşıyacam. Nə qədər qürurlanırdım. Atam da, anam da sevinirdilər. Sonralar qardaşım Vüsal da zabit olmağa qərar verəndə valideynlərimin sevinci daha da artdı. Atam deyirdi ki, o yeniyetmə olanda Azərbaycan müstəqil deyildi, yoxsa tərəddüd etmədən bu peşəni seçərdi.

İllər yel qanadlıdır, tez ötüb gedir və bir gün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində növbəti buraxılış mərasimi keçirilir. Bu təntənəli tədbirə qatılanlar arasında kursant Nüsrət Rəhimov və onun valideynləri də vardı. Və bir gün də Müdafiə nazirinin əmri ilə hərbi hissəyə taqım komandiri təyin edilir.

- Yəqin ki, komandir olduğun ilk günlər həyəcansız keçməyib?

Gözlərini məchul bir nöqtəyə dikir, bəlkə də xəyalı onu uzaqlara - ilk dəfə hərbi hissəyə gəldiyi vaxtlara qaytarır.

- Əlbəttə, həyəcanım az deyildi. Komandir olmaq məsuliyyətli vəzifədir. Tabeliyində olan bir qrup gəncin taleyi sənə tapşırılırsa, görün bu nə deməkdir? Amma Vətən sevgisi, peşəyə ürəkdən bağlı olmaq bütün maneələri üstələyir. Məncə, Vətəni qorumaq peşəsini seçən hər kəs çətinliklərə sinə gərməyə hazır olmalıdır.

- Nüsrət, xatırladığın, yaddaşında qalan əsgərlərin varmı?

- Var belələri. Bacarıqlı, nümunəvi əsgərlər daim komandirə başucalığı gətirir. Ümumiyyətlə, əsgərin gücü ordunun hazırlığı deməkdir. Müdafiə nazirimiz əbəs yerə demir ki, ən müasir silahı da idarə edən əsgərdir. Bəli, əsgər böyük qüvvədir. 2013-cü ilin oktyabrında bir əsgərim ehtiyata buraxılmışdı, Zaqatala rayonundan Vüsal Ramazanov idi. Neçə vaxt keçib, amma yenə də həmin əsgər haqqında düşünürəm. Qəbələ rayonundan da əsgərim olub - Səxavət Əhədli. Hər ikisi olduqca hazırlıqlı, nümunəvi, yüksək əxlaqi keyfiyyətlərə malik gənclər idi.

Baş leytenant qürurla söhbətinə davam edərək deyir ki, aprel döyüşlərində neçə əsgəri ona zəng edib və komandirləri ilə çiyin-çiyinə döyüşməyə hazır olduqlarını bildirib. Gənc zabitə görə, tabeliyindəki əsgərlərin inamını, etibarını qazanmaq komandirin ən böyük uğurudur. "Gərək ətrafındakıları özünə inandırmağı bacarasan. Bu, çox vacib şərtdir, amma buna asanlıqla nail olmaq mümkün deyil. Hər şeydən əvvəl komandir kollektivdə şəxsi nümunə olmağı bacarmalıdır. Bundan ötrü isə səndən tələbkarlıq, qayğıkeş, savadlı, dünyagörüşlü, bir sözlə, əsl hərbçi olmaq tələb olunur. Məsələn, intizamlı olmayan adam başqasından bu vərdişi tələb edə bilərmi? Əgər komandir şəxsi heyət qarşısında dayanırsa, bunun məsuliyyətini dərk etməlidir. Gərək bütün keyfiyyətlərinlə tabeliyindəkilərə nümunə olasan.

- Yəqin ki, düşmənlə üz-üzə mövqelərdə xidmət etmək daha məsuliyyətlidir?

- Həm də şərəflidir, - deyəndə qürurunu hiss edirəm. Bir təcrübəli komandirdən müsahibə alanda demişdi ki, cəbhə bölgəsi cəsurların, qəhrəmanların ünvanıdır. Doğrudan da, ön xətdə xidmət etmək gənclərimizə bu vacib xüsusiyyətləri aşılayır, hansı ki bütün bunlar qəhrəmanlığa səbəb olur. Zamanında Mübariz İbrahimov da, Çingiz Qurbanov da bu yolu keçiblər.

Zabitlə söhbətimdə aprel döyüşlərinə bir də qayıdırıq. Tanıdığımız insanlardan, şəhid zabitlərimizdən söz açırıq. Azərbaycanın Milli Qəhrəmanı şəhid polkovnik-leytenant Murad Mirzəyev haqqında söhbətimiz çox çəkir. Nüsrət də onun barəsində çox eşitdiyini, fədakar komandir olduğunu deyir. Və hesab edir ki, belə insanların ömür yolu örnəkdir.

Gənc komandirlə sağollaşıb ayrılıram. Yolboyu onunla bağlı düşüncələrimdən ayrıla bilmirəm. "Savadlı, bacarıqlı zabitdir, uğurlarını hələ çox eşidəcəyik..."

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Nümunəvi xidmət*

# “Ömür Vətən üçün yaşanılır”



Gizir Seymur Yusubov on ildir ki, Azərbaycan Ordusunda xidmət edir. Müxtəlif hərbi hissələrdə olub. İki ilə yaxındır bu bölmədə xidmətini davam etdirir. Və istər kollektivin, istərsə də komandanlığın rəğbətini qazanıb. Onunla söhbətim məni də qürurlandırdı.

- Artıq neçə ildir ki, ordudasan. Tabeliyində olan şəxsi heyətə hansı vərdişləri aşılamısan?

- Əvvəlcə onu deyim ki, hərbi forma daşıdığım üçün hədsiz sevincliyəm. Tək mən yox, bütün silahdaşlarım Vətən keşiyində dayandıqları üçün fəxr edirlər. Mən həmişə tabeliyimdə olan əsgərlərdə vətənpərvərlik hisslərinin yüksək olması üçün çalışmışam. Hər hansı bir gəncdə Vətən sevgisi yüksəkdirsə, onun Vətənə sədaqətlə xidmət edəcəyi şübhə doğurmur. Hər dəfə əsgərlərlə söhbət aparanda onlara qarşımızda dayanan düşmənin xalqımızın başına açdığı müsibətlərdən, vəhşiliklərdən danışıram. Qoy hər kəs düşmənimizi yaxşı tanısın. Gənc döyüşçülərimiz "Vətənə məhəbbət, düşmənə nifrət" devizi ilə xidmət edirlər. Komandir heyəti həmişə tabeliyində olan hər kəsi düzgün yola istiqamətləndirməyi bacarmalıdır. Axı xidmət keçən hər bir əsgər bizim övladımız kimidir.

- Seymur, gələcəkdə övladının hansı peşənin sahibi olmasını istərdin?

- Hər peşə şərəflidir. Əsas odur ki, Vətənin, xalqın üçün yararlı vətəndaş olasan. Mən özüm hərbçiyəm. Əlbəttə, istərdim övladım da yolumu davam etdirsin. Axı ömrü Vətən üçün yaşamaq böyük şərəfdir. Mən əsgərlərimi vətənpərvər gördüyüm kimi, övladlarımı da bu ruhda tərbiyə edirəm. İnanıram ki, gələcəkdə oğlum da bu formanı əyninə geyib, Vətən torpaqlarının keşiyində dayananlar cərgəsində olacaq.

Müsahibimlə söhbətimi bitirdikdən sonra əlini sıxıb ona minnətdarlığımı bildirirəm. Onun da sözlərindən hiss etdim ki, bu gün tək bir arzusu var - xalqımızın Qarabağ həsrətinə son qoymaq. Əlbəttə, həmin gün uzaqda deyil. Qısa zaman kəsiyində Ali Baş Komandanımızın başçılığı altında işğalda olan torpaqlarımızı azad edib, Şuşada, Xankəndidə, Kəlbəcərdə, Laçında.... qələbə bayramımızı qeyd edəcəyik.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# Döyüş ruhumuz yüksəkdir

*Güclü ordu üçün əsas şərtlərdən biri də şəxsi heyətin mənəvi-psixoloji hazırlığıdır. Döyüş ruhu, vətənpərvərlik ruhu güclü olan əsgərlə ən müasir texnika ilə təchiz olunmuş düşmənə də asanlıqla qalib gəlmək olar. Aprel döyüşləri bir daha sübut etdi ki, Azərbaycan Ordusunda şəxsi heyətin döyüş ruhu yüksək səviyyədədir. İstənilən an torpaqlarımızı işğaldan azad etməyə hazırdır.*




- Farağat! Cənab leytenant, əsgər qrupu ictimai-siyasi hazırlıq dərsinə hazırdır. Qrup rəhbərinin köməkçisi əsgər Hilal Nəsirov.

Bu sözləri ön xətt bölmələrimizin birində şəxsi heyətlə keçirilən ictimai-siyasi hazırlıq məşğələsi başlananda eşitdim. Qrup rəhbəri şəxsi heyətə "26 fevral - Xocalı soyqırımı" mövzusunda geniş məlumat verdi.

"1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş verənlər xalqımızın yaddaşına həkk olunub. Lakin həmin faciə o zamankı Azərbaycan hakimiyyəti tərəfindən lazımi şəkildə qiymətləndirilmədi. Yalnız ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı faciəsi özünün əsl siyasi-hüquqi qiymətini aldı, soyqırımı haqqında həqiqətlərin dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldü. Beləliklə, erməni millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlərin, o cümlədən Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması, faciənin soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyətə start verildi. Erməni şovinistlərinin məqsədi Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi. Lakin mənfur düşmən öz niyyətlərinə çata bilmədi. Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarına zidd olaraq, keçmiş Sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin iştirakı ilə azərbaycanlılara qarşı soyqırımı aktını törətmişdi. Tanklar, piyadaların döyüş maşınları, toplar, D-30 haubitsası və digər müasir hərbi texnika ilə silahsız, dinc sakinləri güllə yağmuruna tutdular. Bir neçə saat ərzində 613 soydaşımız, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmiş, meyitlər üzərində təhqiredici hərəkətlərə yol verilmişdir. Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailənin həyatına son qoyulmuş, 25 uşaq hər iki valideynindən, 130 uşaq isə valideynlərinin birindən məhrum edilmiş, 487 dinc Xocalı sakini ağır yaralanmış və 1275 nəfər girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərin taleyi indiyədək məlum deyil. Bu gün artıq Xocalı soyqırımının 26-cı ildönümüdü. Hər il olduğu kimi orada şəhid olanların xatirəsi sevgi və ehtiramla yad edilir. Biz inanırıq ki, xalqımızın, ana-bacılarımızın qisası yerdə qalmayacaq".

Dərs bitdikdən sonra əsgərlərimizin fikirlərini öyrənmək üçün onlara yaxınlaşıram. İlk həmsöhbətim Bakı şəhərindən ordu sıralarına çağırılan əsgər Seyran Əliyev hər an torpaqlarımızın müdafiəsinə qalxmağa hazır olduğunu bildirdi. "Biz bura Vətənə olan borcumuzu ödəməyə gəlmişik. Bu gün torpaqlarımızın 20 faizi işğal altındadır. Azərbaycan Ordusunun əsgəri olaraq döyüş, fiziki və mənəvi-psixoloji hazırlığımızı daha da artıraraq yağı düşməndən qisasımızı almalıyıq. Ali Baş Komandanımız İlham Əliyevin döyüş əmrin səbirsizliklə gözləyirik".

Digər həmsöhbətim - əsgər İlham Məmmədzadə də ordu sıralarına Bakı şəhərindən qatılıb. Söhbət əsnasında Qanlı 20 Yanvar faciəsində dayısı İlham Məmmədovun şəhid olduğunu öyrənirəm. "İctimai-siyasi hazırlıq məşğələsində keçmişimizi, tariximizi öyrənirik. Xocalı faciəsi haqqında düşünəndə adam dəhşətə gəlir. Necə bir insan olmalısan ki, gecə yarısı təpədən-dırnağadək silahlanaraq dinc əhalini gülləbaran edəsən. Körpə, yaşlı, qadın bilmədən qarşılarına çıxan hər kəsi öldürəsən. Əlbəttə, haqq öz yerin tapacaqdır. Xocalıda, Qarabağda axıdılan nahaq qan yerdə qalmayacaq".

Əsgərlərdən Natiq Sadıqlı, Hilal Nəsirov, Asim İbrahimxəlilov, Qabil İsayev və digərləri də erməni faşistlərindən qisas alacaqları, torpaqlarımızı işğaldan azad edənlərin sıralarında olacaqları günü səbirsizliklə gözlədiklərini bildirdilər.

**Leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu"**

*Gənclər siyasəti*

# Gənclər dövlətçilik tariximizi öyrənirlər

Bu yaxınlarda Milli Azərbaycan Tarixi Muzeyində Bilik Fondunun dəstəyilə məktəblilərin və tələbələrin iştirakı ilə gənc nəslin maariflənməsi istiqamətində seminar keçirildi. Seminarda Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi, "Azərbaycanda Dövlət Gənclər siyasəti" mövzularında mühazirələr dinlənildi. Eyni zamanda seminar iştirakçılarına Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti, beynəlxalq münasibətləri, gənclərin cümhuriyyət və dövlətçilik tariximiz mövzusunda, "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" və akademik Ramiz Mehdiyevin elmi redaktoru olduğu "ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının sənədləri işığında (1919-1920-ci illər) kitabları haqqında geniş məlumatlar verildi.



Seminarda muzeyin elmi işçilərindən tarix üzrə fəlsəfə doktorları Bəhman Kərimov, Fuad Ağayev, Əli Fərhadov çıxış etdilər. Bildirildi ki, Prezidentin 2018-ci ilin ölkədə "Azərbaycan Xalq Cümhuriyyət ili" elan edilməsi haqqında sərəncamı tarixi sənəddir. Müasir Azərbaycan Respublikası müsəlman şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin varisidir. Belə ki, sözügedən sərəncamın tarixi varəsəlik prinsipinin qorunub saxlanılması, onun gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət daşıdığı aydın görünür. Beləliklə, Prezidentin bu qərarı müvafiq dövlət strukturları qarşısında bir sıra vəzifələr qoymaqla yanaşı, həm də bütün Azərbaycan ictimaiyyətinin, xüsusilə, ölkə gənclərinin diqqətini tariximizin bu şanlı hadisəsinə, onun mahiyyətinə yönəldib.

Diqqətə çatdırıldı ki, son illər cümhuriyyət dövrünün araşdırılması məqsədilə əhəmiyyətli işlər görülsə də, həyata keçiriləcək işlər hələ çoxdur. Bu baxımdan, oxuculara təqdim olunan akademik Ramiz Mehdiyevin ideya müəllifi olduğu "ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının sənədləri işığında (1919-1920-ci illər)" kitabı həmin zəngin irsin öyrənilməsinə və araşdırılmasına sanballı və dəyərli töhfədir. Kitab həmin dövrlə bağlı zəngin tarixi məlumatları ehtiva edir.

Eyni zamanda, Azərbaycan mənbəşünaslığı və tarixşünaslığı baxımından da bu kitabın xüsusi əhəmiyyəti və Azərbaycan tədqiqatçılarının ilkin mənbələrlə birbaşa təmasını asanlaşdırdığı da vurğulandı.

Seminar maraqlı diskussiya şəraitində başa çatdı.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

*Qabaqcıl təcrübə*

# Hərbi hissədə radio-qəzet

Bu bizim ilk radioverilişimizdir. Bu radio əsgərlər üçündür. Verilişlərimizdə şəxsi heyətin həyatı, mənəvi-psixoloji durumu, təlimlərdə nailiyyətləri və s. öz əksini tapacaq. Qabaqcıl təcrübənin yayılmasında, yeniliklərin üzə çıxmasında, idmanda, dərslərdə fərqlənənlərin tanınmasında əsgərlər də iştirak edəcək. Radiomuza məktublar yazacaqlar və onların məktubları əsasında inam və cəsarəti təbliğ edəcəyik. Verilişlərdə əsgər dostluğunun müqəddəsliyi də öz əksini tapacaq. Həmçinin radioda əsgərlərə məktəblilərin duyğu dolu məktublarını səsləndirə biləcəyik. Radiomuzda müsabiqələrin qaliblərini tanıdacağıq. Hərbi hissəmizin tarixini, döyüş yolunu, Vətən yolunda şəhid olan qəhrəmanlarını yaddan çıxarmayacağıq. Aprel döyüşlərində şəhidlik zirvəsinə ucalan baş leytenant Ziya Həsənov da belələrindəndir.

Şəhid zabitimiz barəsində düşünərkən İlahə Həmidovanın yazdığı "Tanrı ucalığı" kitabını xatırlayıram:

- Şəhid varsa, Vətən var.
- Ən ali hiss və duyğu Vətən sevgisidir.
- Ziya Niyazi oğlu Həsənov (ölümündən sonra) "Hərbi xidmətdə fərqlənməyə" görə 3-cü dərəcəli medal ilə təltif olunub.
- Ziya 1989-cu ildə Ağdam rayonunda anadan olmuşdu.
- Müəllimləri dəfələrlə qeyd ediblər ki, Ziya öz vəzifəsini və tapşırıqlarını layiqincə yerinə yetirən bir hərbçi olacaqdır.
- Öz hərbi vəzifəsinə canidildən, ürəklə yanaşan Ziya Həsənova xidmətlərinə görə 2014-cü ildə baş leytenant rütbəsi verilmiş və həmin müddətdə medalla təltif olunmuşdu.
- "Qızıl paqonları qazanmaq üçün qızıl günləri qurban verməlisən" - Ziya belə deyərdi.
- Torpağın müqəddəsliyi, toxunulmazlığı hamını yumruq kimi birləşdirmişdi həmin aprel səhəri...
- Xalqın bu istəyi, qələbə arzusu əsgərlərimizin əzm və iradəsini, hünər və cəsarətini artırırdı.
- Tabeliyində olan əsgərləri qoruyan Ziya aprelin 5-də şəhid oldu.

Radioverilişimizin biri də "Şərəf kitabı" adlanır. Burda mövzudan əlavə respublikamız, hərbi hissəmiz üçün mühüm olan bəzi xəbərləri çatdırırıq.

Ay ərzində hərbi hissəmizdə diqqətəlayiq hadisələr də olur. Taborların çöl çıxışları, təlimlərə hazırlıq və s. Verilişdə ayın yekunu haqqında məlumat verilir, döyüş və mənəvi-psixoloji hazırlığın səviyyəsinə görə fərqlənənlər qeyd edilir.

**Polkovnik-leytenant
Zakir HÜSEYNOV,
"N" hərbi hissəsi**

# Hərbi geyimlər Vətənə sevgi ilə hazırlanır

*Hərbi forma hər bir kəsdə izaholunmaz hisslər doğurur. Milyonların içində seçilir bu geyimi daşıyanlar. Vətənimizin keşiyində layiqincə duran oğulların məğrur görkəminə ayrı bir ahəng qatır. Qızğın döyüşlərdə, qışın şaxtasında, yayın istisində müqəddəs hərbçi mundiri onlara olan inamı, güvəni xatırladır. Üzü nurlu anaların, bacıların oğul, qardaş boyunu əzizləyərək tikdikləri hərbçi formaları qorxubilməz oğullarımıza "Aydın səmalarımız, dünyanın ən gözəl musiqisi sayılan körpə mışıltısı həzin nəğməyə sizlərin sayəsində çevrilir. Biz sizə güvənirik", - pıçıldayır.*





Bu formaları qədərsiz sevgiylə, istəklə hazırlayanlarla söhbətləşmək üçün Bakı Tikiş Evinə üz tutduq.

Fabrikin direktor müavini Eldar Haqverdiyev söhbətimizdə bildirdi ki, hazırda bu qurumun əsas vəzifəsi hərbi geyimlərin hazırlanmasıdır. "Kollektivimizdə təcrübəli, müasir texnologiyalarla işləməyi bacaran işçilər çalışır. Müəssisəmizdə bir neçə tikiş sexi, hazırlıq, sınaq, biçim, ütü və presləmə sahələri, laboratoriya, buxarxana və s. fəaliyyət göstərir. Bir sözlə, müstəqil dövlətimizin ordusu üçün hərbi formaların tikilməsi ilə məşğul oluruq".

Direktor müavini qeyd etdi ki, fabrikdə müasir tələblərə cavab verən modellərin istehsalı uğurla davam etdirilir. "Burada çalışanların hamısını - müəssisə rəhbərindən adi tikişçiyədək hər kəsi bir məsələ xüsusilə qayğılandırır. Soyuq səngərdə ayıq-sayıq dayanan Vətən keşikçilərinin rahat, isti, yüksək keyfiyyətli geyimlə təmin edilmələri. Fəxr edirik ki, hərbçilərimiz məhz bizim istehsalımız olan paltarları geyinirlər".

Kadrlar üzrə baş mütəxəssis Kəmalə Salmanova ilə sexlərə baş çəkirik. Kəmalə xanım deyir ki, xalqı həmişə mənəviyyatı birləşdirir. "Mənəviyyatla vətənpərvərlik bilavasitə bağlıdır. Vətənpərvərlik deyəndə, hər şeydən əvvəl, torpaqlarımızı qoruyan oğulları düşünürəm. Özünü Azərbaycan vətəndaşı adlandıran hər kəs həmişə və hər yerdə Azərbaycan naminə çalışmalı, onun hərtərəfli yüksəlişinə səy göstərməlidir."

## Əsgər anaları

Tikişçi Zülfiyyə Seyidova 8 ildir ki, bu müəssisədə işləyir. 3 oğul anası olan bu xanımın iki övladı Vətən qarşısında müqəddəs borcunu layiqincə yerinə yetirib. İndi isə sonbeşiyi Elvin ön cəbhədə müddətli həqiqi hərbi xidmətdədir. Əsgər anasına görə, hər üç oğlunun əsgəri xidmət müddətində komandanlıq tərəfindən ailələrinə ünvanlanan təşəkkür məktublarının onlara yaşatdığı qüruru həyatda heç nə ilə əvəz etmək olmaz. Zülfiyyə xanım üzünü oğlanlarının timsalında bütün əsgərlərə tutaraq deyir ki, Vətənə layiqli xidmət etsinlər. "Vətən, torpaq sevgisi sonsuzdur. Bu sonsuz sevgini insan əməlləriylə, gördüyü işlərlə sübut etməlidir".



Sarabəyim Əliyeva da əsgərlərimizə hərbi forma hazırlamaq kimi müqəddəs bir işlə məşğuldur. Oğlu Sahil Əlizadə on dörd ayın əsgəridir. Söhbətimizdən öyrənirəm ki, iki qardaşı Vətənimizin başı üzərini qara buludlar alanda doğma yurd-yuvalarının müdafiəsinə qalxıb. "Bu gün hazırladığım formalar mənə o günləri xatırladır. Hər əsgər forması hazırlayanda, oğlum Sahilin daim gülümsəyən çöhrəsi gözlərimin önündə canlanır. Bu da məni böyük həvəslə işləməyə ruhlandırır".

Həmsöhbətim Fənarə Cəfərova da bildirir ki, oğlu Vüsal ön cəbhədə müddətli həqiqi hərbi xidmətdədir. Qərbi Azərbaycandan, doğma ocaqlarından qovularaq köçkün düşən, hər cür əziyyətə sinə gərən əsgər anası adını dünyanın bütün fəxri adlarından daha yüksək tutan Fənarə xanım deyir ki, əsgərlikdə olan oğlumun boyunu oxşarcasına əzizləyərək hazırlayıram bu geyimləri. "Ordumuz bizlərin hazırladığı bu geyimlərlə çox yaxında Qələbə xəbərini xalqımıza müjdələyəcək. O gün uzaqda deyil".

## "Dövlətimizlə qürur duyuruq"

Fabrikdə bizimlə həmsöhbət olan sex rəisi Zöhrə Xurşudova artıq 50 ildir burada çalışır. Zöhrə xanım deyir ki, illər öncə Sovet ordusuna forma hazırlayırdıq. "Respublikamız müstəqillik qazandıqdan, ordumuz yaranandan sonra xüsusi bir sevgi ilə hazırlayırıq bu geyimləri. 70 ildən sonra Vətənimiz yeni müstəqillik qazandı. Bizi bir xalq olaraq yer üzündən silməyə çalışan mənfur düşmənlərimiz Xocalı faciəsi ilə gözümüzü qorxutmağa çalışsalar da bunu bacarmadılar. O günlərdə hər bir kəs əlindən gələni Vətən üçün əsirgəmirdi. Fasiləsiz işləyirdik, amma yorğunluğun nə olduğunu bilmirdik. Bu gün bütün dünyada bir çox uğurlara imza ataraq tanınan və ordusu inkişaf etmiş ölkələrin ordularıyla eyni sırada olan dövlətimizlə qürur duyuruq. Ulu öndərimiz Heydər Əliyevin dediyi kimi, Azərbaycanlı olmağımızla fəxr edirik".

## "Biz bütün əsgərlərin bacısıyıq"

Sexlərdən birində asılan üçrəngli bayrağımız diqqətimi cəlb etdi. Diqqətimin bayrağa yönəldiyini görən Kəmalə xanım bildirdi ki, aprel döyüşlərində şəhid olan əsgər Cabbarxan Hacıağayevin əkiz bacıları Fərqanə və Pərvanə bu sexdə çalışırlar. Onlarla görüşüb söhbətləşərkən öyrəndim ki, artıq 7 ildir bu müəssisədə işləyirlər. 3 saylı Peşə Məktəbini bitiriblər. Bacılar deyirlər ki, xalqımızın tarixinə ordumuzun aprel zəfərini yazan oğullardan birinin bacısı olmalarıyla qürur duyurlar. "Fəxr edirik ki, qardaşımız torpaq uğrunda şəhid olub. Cabbarxan bütün Azərbaycan xalqının övladına çevrildi. Bu gün biz də özümüzü bütün əsgərlərin bacısı, onları isə özümüzə qardaş bilirik", - bacılar belə deyir.

- Hərbi forma qardaşıma çox yaraşırdı. Apreldə evə dönəcəkdi, - Pərvanə deyir. - Əsgərin xidmətinin başa çatmasına 1-2 gün qalmış zəng vuraraq "Ana, mənim üçün "üç bacı" dolması bişirərsən, bir də qonaqlığımda elə bir aş bişirərsən ki, qoxusu məhəlləyə yayılsın. Qoy desinlər ki, Cabbarxan üçün gör necə aş bişirilib."

Bayaqdan baxışlarını bayraqdan və qardaşının şəklindən ayırmayan Fərqanə asta səslə dedi:

- Burada çalışan hər bir kəs hərbi geyimləri Vətənə olan sevgi və istəklə hazırlayır. Hazırladığımız hərbi formaların düşmən işğalında olan torpaqlarımızı azad edib, bütün şəhidlərimizin qisasını alan qalib ordumuzu, igid oğullarımızın boy-buxununu bəzəyəcəyinə inanırıq.

## Cəbrayılı düşünərək

Şəfa Quliyevadan da tikiş maşınından bircə anlığa əl saxlayıb müsahibə verməsini xahiş edirəm. Öyrənirəm ki, 1980-ci ildən burada çalışır. Sınaq sexinin dərzi-laborantıdır. Bu gün də özünü Cəbrayıllı kimi tanıdan bu xanım bir çox yaxınlarının döyüşlərdə şəhid vermələrini qürur qarışıq bir hüznlə danışdı. "Oğlumun əynində əsgər formasını gördükdən sonra bu formanı sonsuz bir sevgiylə, istəklə hazırlayıram", - deyən Şəfa xanımın əl işlərinə diqqət yetirəndə gördüm ki, doğurdan da hərbi formaları xüsusi nəvazişlə biçib-tikir.

Ürəyində torpaq itkisi, Vətən həsrəti daşıyan Maya Əsədova da Cəbrayıl rayonunda anadan olub. 5 ildir ki, burada işləyir. Əsgərlərimizə buşlat, yay və qış üçün səhra geyimi hazırlayır. Öz peşəsinin vurğunu olan bu xanım deyir ki, hər dəfə əllərim hazırladığım hərbi formanın üzərində gəzəndə II qrup Qarabağ əlili olan qardaşım Elşadı, o ağır günləri xatırlayıram. "Oğlum Elbəylə yaşıddır Cəbrayıl həsrətim. Qalib ordumuzun sıralarında olmaq oğullarımın da ən böyük arzusudur".

Gözlərinin dərinliyində aydın hiss olunan bir ümid vardı bu xanımların. O ümid deyir ki, ordumuzun dağ duruşlu, qartal baxışlı oğulları Cəbrayılı, Şuşanı, Kəlbəcəri, Zəngilanı, Xocalını və düşmən ayaqları altında od tutub yanan digər əzəli torpaqlarımızı çox yaxın vaxtda azad edəndə bizim hazırladığımız bu formalar da onlara ayrı bir güc, qüvvət verəcək!

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Azərbaycan Xalq Cümhuriyyəti - 100*

# Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin fəaliyyətində hərbi dənizçilik aspektləri

(IV məqalə)

1920-ci ilin əvvəlləri Cənub və Türküstan cəbhələrində Qızıl Ordunun bir sıra böyük qələbələri ilə əlamətdar oldu. Fevralın 6-da M.Frunzenin qoşunları Xəzər dənizinin ən böyük limanlarından olan Krasnovodsku tutmuşdu. 1920-ci il martın 18-də dəniz yolunun açılması ilə 8 yardımçı kreyserin, 18 esminesin, 19 kanonerin, 4 sualtı qayığın və s. daxil olduğu Volqa-Xəzər hərbi donanması Xəzərdə fəal döyüş əməliyyatlarına başladı. Volqa-Xəzər hərbi donanmasına tapşırıq verilmişdi ki, "sahil məntəqələrindən geniş istifadə etmək şərtilə Xəzər dənizini ələ keçirsin".

Aprelin 2-də donanmanın gəmiləri artıq XI ordu tərəfindən tutulmuş Port-Petrovska yaxınlaşdı. Donanma buradan Aleksandrovsk fortuna doğru hərəkət etdi və tezliklə fort təslim oldu. Nəticədə 2 ağqvardiyaçı general, 70 zabit, 1000-dən çox kazak əsir götürüldü. Bütün bu uğursuzluqlar ağqvardiyaçıları məcbur etdi ki, donanmanı İranın Ənzəli limanına ingilislərin himayəsinə aparsın. Bu donanmanın gəmiləri həm də Azərbaycan hakimiyyətinin icazəsi ilə 1920-ci il aprelin əvvəllərində Bakı limanına daxil olmuşdu.

Eyni zamanda, Qafqaz cəbhəsinin komandanlığı artıq 1920-ci ilin yazında Azərbaycana soxulmaq üçün hazırlığa başladı. Qafqaz cəbhəsi komandanlığının 1920-ci il 21 aprel tarixli direktivinə uyğun olaraq Volqa-Xəzər hərbi donanmasının komandanı F.Raskolnikova göstəriş verilmişdi ki, XI ordu Bakıya yaxınlaşarkən Ələt stansiyası rayonuna hərbi dənizçilərdən ibarət desant çıxarsın və Bakıda neftdoldurma donanmasını ələ keçirsin və neft mədənlərinin məhv edilməsinə yol verməsin. Sovet komandanlığı ehtiyat edirdi ki, onların zirehli qatarı Bakıya hərəkət edən zaman Azərbaycan hərbi donanmasının gəmiləri böyük çaplı topların atəşi ilə zirehli qatarı məhv edər, körpüləri və yol tikintilərini dağıdar. Bunun üçün minadaşıyan diviziona tapşırıq verilmişdi ki, Abşeron yarımadasının digər tərəfinə çıxsın, Azərbaycanın "ordunun cinahlarından asılmış" kanoner gəmilərini Sumqayıta qədər nəzarətdə saxlasın. Sonra isə onlar şəraitdən asılı olaraq hərəkət etməli idilər. Azərbaycan donanması qeyri-fəal hərəkət edərdisə, onda sovet minadaşıyıcıları Bulla adasına tərəf manevr etməli və Bakı-Ənzəli əlaqəsini kəsməli idi ki, Bakıdan təxliyənin və əksinə, Ənzəlidən Bakıya kömək göndərilməsinin qarşısı alınsın.



Lakin 1920-ci il aprelin 27-də XI ordu Azərbaycan ərazisinə daxil olduqdan sonra Azərbaycanın Xəzər hərbi donanması özünü tamamilə başqa cür apardı. Lakin bolşeviklərin zirehli qatarının Bakıya daxil olmasına kanoner gəmilərindəki topların atəşi ilə maneə yaratmalı olan donanma nəinki öz döyüş tapşırığını yerinə yetirə bilmədi, hətta aprel çevrilişində fəal iştirak etdi. Bu, onunla bağlı oldu ki, yerli kommunistlər "Kars" və "Ərdəhan" kanoner gəmilərinə öz adamlarını sala və hətta burada özlərinin ilkin özəklərini yarada bilmişdilər. Bakının dənizdən müdafiəsinin yarılmasında Bakı hərbi limanında rəis müavini işləyən kommunist Çingiz İldırım sahil batareyaları toplarının sürgülərini sökməklə fəal rol oynamışdı.

Bu vaxt Ələt stansiyası rayonuna yaxınlaşan Volqa-Xəzər hərbi donanmasının 650 əsgər, pulemyot və 4 düymlük toplarla silahlanmış hərbi dənizçilərdən ibarət desantçılar dəstəsi cənub istiqamətində irəlilədi. Volqa-Xəzər hərbi donanması gəmiləri - "Karl Libknext", "Deyatelnı" və "Rastoropnı" esminesləri mayın 1-də Bakı buxtasına daxil oldular. Mayın 3-də və 4-də Lənkərana və Astaraya hərbi-dəniz desantçıları çıxarılmış və beləliklə də Azərbaycanın bütün Xəzəryanı ərazisi Volqa-Xəzər hərbi donanmasının nəzarətinə keçmişdi.

Beləliklə də Azərbaycan Respublikasının döyüş qabiliyyətli, güclü hərbi dəniz qüvvələri yaratmaq cəhdləri ilk mərhələdə uğursuzluğa uğradı. Bu, bir tərəfdən respublika hərbi dəniz donanması gəmilərində maddi-texniki bazanın zəif olması, digər tərəfdən isə donanma zabit kadrlarının və mütəxəssislərinin olmaması ilə bağlı idi. Bundan başqa, respublikada hərbi dəniz qüvvələrinə yüksək səviyyəli komanda-mühəndis kadrlarının hazırlanması üçün xüsusi tədris məktəbi yox idi. Burada Rusiya imperiyasının Şimali Azərbaycana olan müstəmləkəçilik siyasəti, xüsusilə hərbi sahədə, azərbaycanlıların hərbdən, hərbi dəniz təhsilindən uzaqlaşdırılması, həmçinin onların Rusiyanın hərbi dəniz qüvvələrində xidmət etmək imkanından məhrum edilməsi də acı nəticəsini göstərdi.

Bu dövrdə Azərbaycan hökumətinin Xəzər dənizində hərbi dəniz qüvvələrini yaratmaq cəhdləri xaricdən, xüsusilə denikinçilər tərəfindən əks təsirlə qarşılanırdı. Odur ki, Azərbaycan yalnız Bakının dənizdən müdafiəsini təşkil etməklə kifayətlənməli oldu. 1918-1920-ci illərdə kifayət qədər döyüş qabiliyyətli milli hərbi dəniz qüvvələrinin yaradılmamasının əsas səbəbi isə Azərbaycan Xalq Cümhuriyyətinin ömrünün qısamüddətli olması idi.

**Nurulla ƏLİYEV,**
**tarix elmləri doktoru,**
**ehtiyatda olan**
**I dərəcəli kapitan**

*Düşüncələr*

# İşıqlarımız yanacaq, Zəhra bala!..

*Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin "N" hərbi hissəsində marafon xarakterli silsilə tədbirlərindən biri başa çatır. Əsgərlərimizlə görüşdən könül xoşluğu və əminliklə ayrılırıq. Bu əminliyi bizlərə Azərbaycan əsgəri bəxş etmişdi... Baxışlardakı ifadə deyirdi ki, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında aprel zəfərini qazanan Azərbaycan əsgəri Qələbə soraqlı, Qələbə ruhludu. Üçrəngli bayrağımız Ağdamda, Füzulidə, Şuşada, Xankəndidə, Laçında, Cəbrayılda, Zəngilanda, Kəlbəcərdə dalğalanacaq, ruhumuza sığal çəkən mahnılar o torpaqlarda da səslənəcək.*

Yolboyu dəyişən, bir-birini əvəz edən mənzərələr insanda könül oxşayan təəssüratlarla fərqli-fərqli hisslər oyadır. Müharibənin amansız qanunlarının təsirinə məruz qalan evləri görəndə ürəyim qan ağlayır, bir-birinə söykənən dağları, həyat əlaməti duyulan kəndləri görəndə toxtaqlıq tapıram.

Zabit Zöhrab İmamquliyevin təklifi ilə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu sürücü Elşad Zayidov idarə etdiyi avtobusun sürətini azaldır, hər birimizin son mənzili olacaq bir məkanın - qəbiristanlığın qarşısında saxlayır. Düşmən atəşinə tuş gələn, hələ 2 yaşı tamam olmamış Zəhra balamızın, onu laylası ilə, nənnisi ilə əzizləyən nənəsinin məzarı bu qəbiristanlıqdadı.

Gözlərim məsum körpənin soyuq baş daşından mənə baxan gözlərinə sataşır. O məsum gözlər nələr demirdi? - Zəhranın qəlbinin duruluğunu, gözəlliyini gördüm orada... Yaşla dolan gözlərində sularda əks olunmuş kimi görünən ana həsrətini gördüm... Bir də yaşamaq həvəsini gördüm... O gözlər deyirdi ki, günahım nə idi?.. "Həsrət qalmışam ana məhəbbətinə... Niyə buradayam?.. Hanı anam? Anamı istəyirəm. Nənəm yanımdadı. Yaxşı ki, gəlinciklərim yanımdadı. Onlarla oynayıram. Axşamlar nənəmin nağıllarına qulaq asıram. Amma nənəm çox qəmgin görünür. Düşmən güllədindən kor olmuş sol gözümü öpə-öpə ağlayır, gözünün yaşını tökür. Deyirəm, ay nənə niyə ağlayırsan? Biz ölmüşük? Deyir yox, ay bala, sən ölməmisən, şirin yuxudasan."

Sahibə nənənin gözlərindəki nisgil deyirdi ki, Zəhra balama dediyim layla fələyin üzüdönüklüyündən bir anın içində nisgillə, ağıyla əvəzləndi. "Millətimizin qanına susayan düşmənimiz laylamı ağıya döndərdi. Bu körpənin günahı nə idi? Vicdan susanda həqiqətən də gözlər kor, qulaqlar kar olur. 18 aylıq körpənin canına qıyanların vicdanı olubmu? Zəhra ilə bağlı mənim o qədər arzularım var idi ki. Nəvəmin məktəbə qədəm qoyduğu günə qurban demişdim. O da yaşıdları kimi məktəbə, instituta gedəcəkdi. O da ailə quracaqdı, oğul-uşaq sahibi olacaqdı. Zəhranın saçlarına əlvan lentlər bağlayıb məktəbə yola sala bilmədik. Zəhraya sevib-sevilmək, gəlinlik paltarı geymək də nəsib olmadı... Arzum odur ki, bundan sonra heç bir ananın gözü yaşlı qalmasın, heç bir valideyn uşaqları ilə bağlı arzularını ürəklərində dəfn etməsin".




Sahibə ana, arzularınızın çin olmasına çox uzun zaman qalmayıb. Aprel zəfəri də, Cocuq Mərcanlıya qayıdış da, Lələtəpədə, Bayraqtəpədə Azərbaycanın müqəddəs üçrəngli bayrağının dalğalanması da sübutdu ki, Azərbaycan əsgəri xalqımızın arzusunun bayraqdarı olacaq. Azərbaycan əsgəri günahsız nənəni və nəvəni həyatdan aparan qəlpələri mərmilərlə əvəz edib düşmənin başına od ələyəcək. Haqq nazilər, ancaq üzülməz. Düşmən torpaqlarımıza yiyələnmək qəsdindəykən Azərbaycan əsgəri Zəhranı, sizin, torpaqların bütövlüyü uğrunda canını fəda etmiş bütün oğul və qızlarımızın qanını yerdə qoymayacaq. Söndürülmüş ocaqlarımızı çatacaq, işıqlarımızı yandıracaq, yurdumuza, itirdiklərimizə sahib çıxacaq. Ruhunuz onda şad olacaq.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

*Ovqat*

# “Böyüyəndə mən də əsgər olacam”



"N" hərbi hissəsinin yaranması günündə kifayət qədər könül xoşluğu yaşayırdıq. Rayon ictimaiyyəti də, qonaqlar da, veteranlar da, hərbi hissənin əsgərləri də. 90-cı illərdə Tərtəri müdafiə edən əsgərlərin, zabitlərin ürəyini silkələmiş duyğuları sezmək, hiss etmək çətin deyildi. Əlil arabasında gətirilən keçmiş zabitin bir qədər dalğın, bir qədər kövrək, bir qədər qürurlu baxışları məni özünə çəkdi. Öyrəndim ki, Niyazi Qurbanovdu. İstefada olan leytenantdı. Neçə-neçə uğurlu əməliyyatda iştirak edib. Ağdərə ətrafında gedən döyüşlərin birində ağır yaralanıb. Uzun müddət müalicə alsa da, sağlamlığını bərpa etmək mümkün olmayıb. O vaxtdan ayaqları fəaliyyətini itirib.

Niyazi Qurbanov tədbirə 8 yaşlı nəvəsi Şamillə gəlib. Şamili də özüylə gətirib ki, keçmiş döyüşçü yoldaşlarını yaxından tanıtsın, babanın illərin o üzündə qalan, bu gün də yaşayan, yaşadılacaq xatirələrinin kimlərlə qoşa yaşandığını görsün.

Şamil hərbi səhra paltarı geyinib. Çox sevinir.

Söhbətləşdik. Vəzir Orucovdan danışdı, Elman Hüseynovdan danışdı, Pənah Məmmədovdan danışdı, Ağdərə ətrafında gedən döyüşlərdən danışdı. Bu kəlmələri 8 yaşlı uşaqdan eşitdiyimə inana bilmirdim. O qədər emosional danışırdı ki! Dinləyənə elə gəlirdi ki, Şamil həmin döyüşlərin iştirakçısı olub.

- Böyüyəndə kim olacaqsan, balaca? - soruşdum. Tərəddüd etmədən qətiyyətlə "Əsgər olacam"- dedi və tədbirə gələnlərin arxasında nizami qaydada düzülmüş əsgərlərə baxdı.

Babanın qürurunu qürurum bildim. Bu yaşda uşağın düşüncələri babanın da, mənim də, sağımızda-solumuzda dayananların da ürəyini telləndirdi.

- Əsgər torpağı qoruyur. Torpaq Vətəndi. Babam deyir ki, Vətəni qorumayana oğul deyilməz. Mən böyüyəndə əsgər olacam, torpaqlarımızı Vəzir baba kimi, Yusif baba kimi, Pənah baba kimi, öz babam kimi qoruyacam!...

Şamil tədbir sona çatanacan oturmadı, baxışları əsgərlərdən üzülmədi. Xəyalında 18 yaşlı gənciydi Şamil. Tədbirə dəvət olunmuş əsgərlərin sırasındaydı. Əmr gözləyirdi...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş ərazilərimizdə Ermənistan ordusu nümayəndələrinin narkotik qaçaqmalçılığı ilə məşğul olmaları barədə dəfələrlə məlumatlar yayılmış və bu haqda müxtəlif beynəlxalq təşkilatlar hesabatlar hazırlamışlar. Bu günlərdə işğalçı ordunun daha bir hərbi qulluqçusu narkotik vasitə daşıyarkən saxlanılıb.

Məlumatda bildirilir ki, Ermənistan ordusunun zabiti baş leytenant Davit Karamyan özünə məxsus 35 NS 547 dövlət nömrə nişanlı “Mersedes” markalı avtomaşını ilə narkotik maddə apararkən Dağlıq Qarabağ ərazisindəki Metsşen yaşayış məntəqəsində yaxalanıb. Faktla bağlı araşdırma aparılır.

* * *

İşğal edilmiş ərazilərimizdə yerləşdirilən düşmən ordusunun bölmələrindən birində bir neçə gün bundan əvvəl baş vermiş hadisə əsgər valideynlərinin hiddətinə səbəb olub.

Məlumatda bildirilir ki, şəkərli diabet xəstəsi olan Avetis Saakyan adlı əsgər hərbi hissənin tibb məntəqəsinə müraciət edib. Lakin burada dərman olmadığından hərbi qulluqçuya heç bir ixtisaslı tibbi yardım göstərilmədən o yenidən xidmət yerinə göndərilib. Bundan sonra hərbi hissədə hərbçinin vəziyyəti birdən-birə pisləşib.

Qalmaqalın hay-küyə səbəb olacağından qorxan hərbi hissə komandiri vəziyyəti ağırlaşan A.Saakyanın təcili olaraq Xankəndi hərbi hospitalına yerləşdirilməsi barədə tapşırıq verib.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Hərbi texnikalar, silahlar*

# “Tufan” gözətçi gəmisi



"Tufan" gözətçi gəmisi öz təchizatına görə ordunun müasir gəmisidir.

Gəminin uzunluğu 62 metr, subasımı 470 tondur. "Tufan" gəmisində 25 kilometrlik atış məsafəsinə malik olan "Spike-NLOS" raketlərindən istifadə edilir. Müxtəlif hava şəraitində gəminin göyərtəsinə helikopterlərin enib-qalxması mümkündür. Bundan başqa gəmi bir ədəd 23 mm çaplı 2A14 topuyla silahlanmış "Typhoon", iki ədəd 12,7 mm çaplı M2HB pulemyotu, "Mini Typhoon" modulu, iki ədəd "Negev" pulemyotu ilə təchiz edilib. Gəmi uzaq məsafədən sualtı təhdidləri aşkarlamaq üçün müasir sonar sistemi ilə təchiz olunub.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan şəhidlərinin övladları Türkiyəyə səfər edəcəklər

Türkiyədə fəaliyyət göstərən Azərbaycan Qadınları Mədəniyyət Mərkəzi Dərnəyi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar "Azərbaycan-Türkiyə şəhid övladları qucaqlaşırlar" layihəsinin icrasına başlayıb. Bu barədə AZƏRTAC-a Azərbaycanın Diaspora İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Dərnəyin sədri Cəvahir Əhmədova çıxışında bildirib ki, layihənin məqsədi Türkiyədən və Azərbaycandan olan şəhid uşaqlarını, ailələrini görüşdürmək, onları ölkələrimizin tarixi, mədəniyyəti ilə yaxından tanış etmək, eyni zamanda, Afrin əməliyyatında Türkiyə dövlətinə, ordusuna mənəvi dəstək olmaqdır. Bu məqsədlə Azərbaycanın şəhid övladlarından ibarət 38 nəfərlik qrup martın 15-dən 27-dək Türkiyədə səfərdə olacaq. Şəhid övladları Ankarada Anıtqəbiri, ziyarət edəcək və rəsmi şəxslərlə görüşəcəklər. Onların həmçinin Bursaya və Eskişehirə səfəri planlaşdırılır. Şəhid övladlarının səfəri Afyonkarahisar, Kocatepe şəhidliyi, Çanaqqaladan keçərək İzmirdə başa çatacaq.

Azərbaycan Qadınları Mədəniyyət Mərkəzi Dərnəyinin fəaliyyət göstərdiyi İzmirdə Türkiyədən olan şəhid uşaqları və ailələri ilə görüş, birlikdə tarixi və mədəni yerlərə gəzinti təşkil olunacaq. Səfər müddətində şəhid uşaqlarını bir həkim, iki tarixçi alim, bir psixoloq və altı nəfərdən ibarət nəzarətçi qrup müşayiət edəcək.

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyənin İstiqlal marşının qəbul olunmasından 97 il ötür



1921-ci il martın 12-də ölkədə elan olunmuş İstiqlal marşı müsabiqəsində böyük türk şairi Mehmet Akif Ersoyun sözləri qalib elan olub. Təxminən bir əsrə yaxın dövrdə Türkiyə xalqının sevə-sevə oxuduğu bu marş xalqın milli-azadlıq mücadiləsində böyük rol oynayıb. Dövlət himni qəbul olunan dövrdə Türkiyə xalqı ölüm-dirim savaşına qalxmışdı. Ölkə ərazisinin böyük bir hissəsi işğal altındaydı. Torpaqların işğaldan azad olunması, ölkənin ərazi bütövlüyünün qorunmasında Mehmet Akif Ersoyun sözlərinə yazılmış İstiqlal marşı insanları Vətən uğrunda ruhlandırıb, xalq bu marşın sədaları altında birlik və həmrəylik nümayiş etdirərək düşmənə qalib gəlib.

### Sinay yarımadasında 16 ekstremist öldürülüb



Misir ordusu Sinay yarımadasında antiterror əməliyyatları zamanı son dörd gün ərzində 16 ekstremisti məhv edib.

Bu barədə məlumatı Misirin Silahlı Qüvvələri yayıb.

Sinay yarımadasında antiterror əməliyyatı bir aydan artıqdır davam edir. Bu müddətdə 100-dən çox ekstremist, terrorçuların 10-dan çox sığınacağı, silah-sursat anbarları, nəqliyyat vasitələri məhv edilib.

### Bağdad-Kərkük yolunda pusqu quran İŞİD silahlıları 10 nəfəri öldürüb



İŞİD terror qruplaşmasının Bağdad-Kərkük yolunda qurduğu pusqu nəticəsində azı 10 nəfər öldürülüb.

"Al Sumaria" telekanalının yaydığı məlumata görə, terrorçular Bağdad-Kərkük yolunda saxta nəzarət buraxılış məntəqəsi quraraq 10 dinc sakini qətlə yetiriblər. Güc strukturları hadisənin baş verdiyi ərazini mühasirəyə alıb və hücumu həyata keçirən silahlıları axtarır.

İraqın şimalında yerləşən Kərkük vilayətinin qubernatoru Rakan əl-Cəburi hələ fevral ayında bu regionda İŞİD qruplaşmasının "yatmış" yuvalarının əhali üçün ciddi təhlükə yaratdığını demişdi.

Xatırladaq ki, İraqın Baş naziri Heydər əl-Abadi 2017-ci ilin dekabrında İŞİD-ə qarşı mübarizənin uğurla başa çatdığını bildirsə də, sonradan qruplaşmanın tör-töküntülərinə qarşı mübarizənin vacibliyini qeyd etmişdi.

Bir müddət əvvəl hökumətə loyal könüllülər Kərkükdə İŞİD-in terror yuvalarına qarşı federal polis qüvvələri ilə birgə əməliyyatlara başlayıb.

### Əfqanıstanda raket zərbəsi nəticəsində 7 nəfər həlak olub



Əfqanıstanın şərqində yerləşən Nanqarhar vilayətində "Taliban" hərəkatının raket zərbəsi nəticəsində 7 dinc sakin həlak olub. Bunu vilayət qubernatorunun rəsmi nümayəndəsi Ataullah Hoqyani bildirib. İnsident martın 12-də səhər saatlarında Batikot rayonunda baş verib. Taliblərin atdıqları raket nəqliyyat vasitəsinə dəyib.

Qeyd edək ki, 2014-cü ildə ABŞ hərbi kontingenti Əfqanıstanı tərk etdikdən sonra ölkənin cənub rayonlarının bir çoxu "Taliban" hərəkatının nəzarətinə keçib. Son zamanlar bəzi kənd rayonlarında üstünlüyə yiyələnən yaraqlılar böyük şəhərlər istiqamətində də hücumlarını davam etdirir. Həmçinin regionda İŞİD qruplaşması da aktiv fəaliyyət göstərir.

**AZƏRTAC-ın materialları əsasında**

# "Vətənim Azərbaycan"



*Şəxsiyyətin formalaşmasında musiqinin və poeziyanın böyük əhəmiyyəti vardır. Bu baxımdan Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığında digər vasitələr kimi musiqi və poeziyanın da imkanlarından səmərəli istifadə edilir, müxtəlif formatlı tədbirlər həyata keçirilir.*

Martın 12-də Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində Azərbaycan Demokratik Respublikası və Silahlı Qüvvələrin yaranmasının 100 illiyinə həsr edilmiş "Vətənim Azərbaycan" adlı şeir və mahnı müsabiqəsi başlanıb. Müsabiqə martın 16-na kimi davam edəcək.

Müsabiqə Bakı Qarnizonu hərbi qulluqçularının və onların ailə üzvlərinin istedad və yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması, milli-mənəvi dəyərlərin təbliği, hərbi vətənpərvərlik ruhunun aşılanması məqsədilə keçirilir.

Hərbi qulluqçuların bədii estetik dünyagörüşlərinin zənginləşməsi, mənəvi-psixoloji hazırlığının yüksəlməsi və mənəvi dəyərlərimiz əsasında formalaşdırılması bu tədbirin əsas qayəsini təşkil edir.

Seçim turunda iştirakçıların çıxışlarını qiymətləndirmək məqsədilə Mərkəzi Zabitlər Evinin mədəni-kütləvi iş bölməsinin müdiri Gülxar Məmmədovanın rəhbərlik etdiyi beş nəfərlik münsiflər heyəti seçilib. Onların əksəriyyəti Mərkəzi Zabitlər Evinin yaradıcı nümayəndələridir.



Müsabiqəni açıq elan edən Gülxar Məmmədova iştirakçılara uğurlar arzuladı.

Müsabiqə 3 nominasiya üzrə nəzərdə tutulub:

- **Vokal;**
- **Muğam və xalq musiqisi ifaçılığı;**
- **Bədii qiraət.**

Müsabiqənin sonunda qaliblər mükafatlandırılacaq.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

## Fiziki hazırlıq

# "İdmanla məşğul olmaqdan yorulmuruq"

*Əsgərlərin gündəlik fəaliyyətində fiziki hazırlığın da rolunu mütləq qeyd etməliyik. Fiziki hazırlıq əsgərlərin həm döyüş qabiliyyətinin artırılmasına, həm də sağlamlığının möhkəmləndirilməsinə kömək edən əsas amillərdən biridir. Əsgərlər idmanla nə qədər çox məşğul olsalar, fiziki cəhətdən möhkəm, güclü olurlar. Yüksək fiziki hazırlıq onların döyüş qabiliyyətinə də müsbət təsir göstərir. İdmanla məşğul olan hərbi qulluqçu dözümlü, cəsur olur, həm də döyüş tapşırıqlarını daha çevik və dəqiq yerinə yetirir. Ordumuzun bütün bölmələrində yaradılan və müasir idman avadanlıqları ilə təchiz olunan trenajor otaqlarında, idman şəhərciklərində müxtəlif idman yarışları təşkil olunur.*

"N" hərbi hissəsində günün nizam qaydasına uyğun olaraq döyüş hazırlığı, ictimai-siyasi hazırlıq, taktiki və atəş hazırlığı dərsləri ilə yanaşı fiziki hazırlıq məşğələsinin də yüksək səviyyədə təşkilinin şahidi oldum. İdman şəhərciyi özünəməxsus rəngarəngliyi, səliqə-sahmanı ilə diqqətimi çəkdi. Əsgərlər gizir Elgün Mirzainin rəhbərliyi ilə idman şəhərciyinin qarşısında təyin olunmuş formada düzüldülər. İsinmə hərəkətləri icra olunduqdan sonra turnikdə, paralel qollarda və digər alətlərdə çalışmalar yerinə yetirildi. Göz oxşayan mənzərə məndə əminlik yaradır ki, şəxsi heyət yetərincə fiziki hazırlığa malikdir.

İlk həmsöhbətim gizir Elgün Mirzaidir. Əslən Ağcabədidən olan Elgün bildirir ki, gündəlik fəaliyyətimizdə fiziki hazırlığımızı da artırmağa səy göstəririk.

- Yaxşı bilirik ki, qarşımızda duran əsas vəzifə torpaqlarımızın işğaldan azad olunmasıdır. Bunun üçün də Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazırıq. Bacarıqlı döyüşçü olmaq üçün fiziki hazırlığımız da yüksək olmalıdır. Bunun üçün də idmanla mütəmadi məşğul olur, çevikliyimizi artırırıq ki, düşmənlə əlbəyaxa olanda onu məhv edək.




İdman hərəkətləri zamanı yüksək bacarıq nümayiş etdirən əsgərlərdən birini tanıyıram. Tural Alıyev hərbi xidmətə Daşkəsən rayonundan çağırılıb.

- İdmanla məşğul olmaq uğurlarımızı daha da artırır - deyir. - Silahlardan istifadə etməyi, döyüş taktikasını mükəmməl öyrənməklə yanaşı, fiziki vərdişlərimizi də artırmalıyıq ki, öyrəndiklərimizi döyüş meydanında cəld və vaxtında tətbiq edə bilək. Döyüş zamanı bir mövqedən digərinə ani bir zamanda sıçramaq, tez vaxtda özünə yeni mövqe tutmaq və digər fəaliyyətlər fiziki güc tələb edir. Bunun üçün də hər gün idmanla məşğul olmaqdan yorulmuruq.

Növbəti həmsöhbətim isə hərbi xidmətə Ağdam rayonundan çağırılan Toğrul Məmmədovdur. Hərbi hissədə nizam-intizamın, qarşılıqlı münasibətlərin güclü olduğunu bildirir. "Əsgər olmaqdan qürurlanıram. Hərbi hissədə bizə yüksək diqqət göstərilir, qayğılarımızla yaxından maraqlanırlar. Buna görə də hər bir komandir və zabitimizə təşəkkür edirəm. Daim çalışırıq ki, əmr və tapşırıqları vaxtında, düzgün yerinə yetirək. Bütün əsgər yoldaşlarımla idman saatlarında fərqlənməyə çalışırıq. Asudə vaxtlarımızda idmanla məşğul olanda günümüz də maraqlı keçir".

Vətən oğullarından xoş təəssüratla ayrılıram. Günü-gündən güclənən ordumuzun belə bacarıqlı, mərd əsgərlərini tanımaqla böyük qələbəyə inamım daha da artır...

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu",
foto
C.CƏFƏROVUNDUR**

# "Hazırda Azərbaycan Ordusunun keçirdiyi təlim ATƏT-in Vyana sənədinin müddəalarına uyğundur"

*Ermənistanın Helsinki Yekun Sənədi və etimad quruculuğu tədbirlərinə dair Vyana sənədi əsasında öhdəliklər daşıması deyəsən Ermənistan Xarici İşlər Nazirliyinin indi yadına düşüb. BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və digər ATƏT sənədləri çərçivəsində üzərinə götürdüyü öhdəliklərini kobud şəkildə pozaraq Ermənistan Azərbaycana qarşı gücdən istifadə edərək Azərbaycan ərazilərini işğal edib. Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğunu davam etdirməsi regional sülh və təhlükəsizlik üçün ciddi təhdid olaraq qalır.*

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin açıqlamasında yer alıb.

Hikmət Hacıyev deyib ki, Vyana sənədi çərçivəsində üzərinə götürdüyü öhdəliklərini kobud şəkildə pozaraq, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirdiyi canlı qüvvə, hərbi texnikanın sayı və dislokasiya yerləri, həmçinin işğal olunmuş ərazilərdə Ermənistan prezidentinin iştirakı ilə keçirdiyi hərbi təlimlər barədə heç bir məlumat vermir. Bu qüvvələr Vyana sənədi üzrə müvafiq inspeksiyalardan gizlədilir.

2014-cü ilin noyabrında dövlət başçılarının Paris görüşündən sonra Ermənistanın 40 mindən artıq şəxsi heyətin, minlərlə hərbi texnikanın iştirakı ilə Azərbaycanın işğal olunmuş ərazilərində hərbi təlim keçirməsi, Ermənistan silahlı qüvvələrinə məxsus döyüş helikopterlərinin Azərbaycan silahlı qüvvələrinin mövqeləri üzərində hücum manevrləri etməsi Ermənistanın riyakarlığının və öz öhdəliklərini kobud şəkildə pozmasının növbəti açıq nümunəsidir.

Hazırda Azərbaycan Ordusu tərəfindən Azərbaycanın suveren ərazilərində həyata keçirilən təlim ATƏT-in 2011-ci ildə qəbul edilmiş Vyana sənədinin V fəslinin müddəalarına uyğundur.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 97
Nüsxə 3510